## XX əsrin bəlası - Deportasiya







*İrəvan Qərbi Azərbaycanın nəinki bütün Qafqazda, hətta Şərq ölkələrində belə ən iri ticarət, elm və mədəniyyət mərkəzi, tipik müsəlman şəhəri olmuşdur. Burada bir-birindən yaraşıqlı 8 məscid tikilmişdi. Əzəmətli Göy məscid və Günlüklü məscid son dövrlərə qədər qalırdı. Şəhərin bir tərəfi mənbəyini Göyçə gölündən götürən Zəngi çayının sıldırım təpəsi üstündə, o biri tərəfi isə çuxurda yerləşirdi. Ağrı dağ vadisi bura qədər uzanırdı. İrəvanın ətrafı sıx meşə və bağlarla əhatə olunmuşdu.*



# Təpəbaşı məscidində erməni barbarlığı



İrəvan qədim yaşayış məskəni olsa da, onun şəhər həyatı haqqında XIV-XV əsrlərdə məlumat verilir. Qaraqoyunlu və Ağqoyunluların hökmranlığı dövründə İrəvan Çuxur Səd vilayətinin inzibati mərkəzi olmuş, Əmir Səd, onun övladları Həsən Əli Qaraqoyunlu (1460) onun abadlaşdırılması qayğısına qalmışlar. Məmmədqulu xanın hakimiyyəti dövründə İrəvanda olmuş fransız səyyahları İan Batist Tabepnijen, ondan iki il sonra İan Şarden, eləcə də digər Avropa səyyahları öz yol qeydlərində İrəvan qalasından, orada yaşayan əhalinin milli mənsubiyyətindən söhbət açmışlar. Şəhər qalasında 800 evin olmasını, orada yalnız müsəlmanların yaşamasını səyyahlardan biri yazmışdır: "Şəhər torpaqlarını cənub-qərbdən axan Qırxbulaq və şimal-qərbdən axan Zəngi çayları suvarır. Sərdarın sarayı çox gözəl, möhtəşəm bir imarətdir...".

Xan sarayının güzgülü salonu, qalada ucaldılmış qoşa-qoşa əzəmətli məscidlər, iki-üçmərtəbəli imarətlər, karvansaralar, meydanlar, mərmər hovuzlar, fəvvarələr, möhtəşəm abidələr, bağ-bağçalar, İrəvanın həyat tərzi, onun müsəlman sakinləri haqqında səyyahlar ətraflı məlumat vermişlər.

Toponimlər, yer adları, tarixi sənədlər, abidələr qəti sübut edir ki, sonradan yaradılan qondarma Ermənistan ərazisində azərbaycanlılar çoxluq təşkil etmişlər.

1880-ci ildə İrəvanda səfərdə olan arxeoloq Uvarov məşhur Göy məscidin uzaqdan cəlb edən günbəzinə və bir cüt uca minarəsinə baxıb heyranlıqla yazırdı: "Məscidin üstündən boylanan çətir sanki müsəlman aləmində tutduğu mövqeyinin nə qədər mühüm olduğunu bütün dünyaya sübut edirdi".

Təpəbaşı İrəvanda diqqəti çəkən məhəllələrdən biri idi. Bu məhəllə Zəngi çayı ilə şəhri məhəlləsinin arasındakı təpəlikdə yerləşirdi və şəhərin qərb hissəsini əhatə edirdi. Təpəbaşı məhəlləsini şəhri məhəlləsindən İrəvanın adlı-sanlı adamlarının çoxsaylı bağları ayırırdı. Hüseynqulu xana məxsus məşhur Xan bağı da burada yerləşirdi.

1728-ci ildə tərtib olunmuş Osmanlı "Müfəssəl dəftər"ə görə, bu dövrdə İrəvan şəhəri 4 məhəllədən ("Köhnə şəhər", "Dəmirbulaq", "Dərəkənd" və "Təpəbaşı"dan) ibarət olmuşdur.

Bəzi mənbələrdə Təpəbaşı məscidinin inşa tarixinin 1687-ci il olduğu qeyd edilsə də, onun dəqiq tikilmə tarixi məlum deyil. Bəzi məlumatlara əsasən XIX əsrin 40-cı illərində mövcud olduğu bildirilir. Çox güman ki, məscid daha qədimdir və XVII-XVIII əsrlərə aiddir. Bəzi məlumatlara görə məscid İrəvan şəhər upravasının üzvü, xan nəslindən olan Abbasqulu xan İrəvanskinin göstərişi ilə tikilmişdir. Onun evi də həmin məhəllədə olmuşdur. Təpəbaşı məscidi eyniadlı Təpəbaşı yaşayış massivində yerləşirdi. Məscidin minarəsi isə 1960-cı illərdə uçmuşdur. Sonralar isə məscidin həyətində və ətrafında gecəqondular inşa edilmişdir. 1988-ci ildə Qərbi azərbaycanlıların son deportasiyasından sonra dağılmış vəziyyətdə olan məsciddə erməni ailələri məskunlaşdı. Bəzən erməni ailələrinin yaşadığı Abbasqulu xanın evini haylar hələ də "Xanın evi" adlandırırlar. Məscidin ətrafında vaxtilə bir çayxana var idi. Adamlar Təpəbaşı məhəlləsindəki bu çayxanaya tez-tez toplaşar, şirin-şirin söhbətlər edər, milli musiqimizi dinləməkdən ləzzət alardılar. Bu çal-çağırlı anları ermənilərin ürəyi heç də götürmürdü.

Təpəbaşı məscidi kərpicdən tikilmişdi. Çox yeri rombvari naxışlı sirli mozaika plitələrlə üzlənmişdi. Divarlarının qalınlığı 1,5 metr idi. Məscidin içərisindəki imam otağında da hazırda erməni ailələri yaşayır.

Ermənilər tərəfindən aparılan, 100 ildən çox davam edən və sistemli xarakter daşıyan söküntü proseslərinə baxmayaraq, onun son qalıqları günümüzə qədər gəlib çıxıb. Tarixi abidələrlə zəngin, görkəmli azərbaycanlıların yaşadığı bu məhəllənin müasir zamanda müqəddəratı ilə bağlı ciddi narahatlıq yaranıb.

Tarixçilərimiz tərəfindən qədim Azərbaycan torpaqları olan İrəvan xanlığı, etnoqrafiyası, əhalisi, iqtisadiyyatı, coğrafiyası, habelə bölgənin antik dövrdən yeni dövrə qədər keçdiyi tarixi inkişaf yolu barədə həqiqətlər ölkə və dünya ictimaiyyətinə çatdırılır.

Artıq 37 ildir ki, Qərbi Azərbaycanın bütün əraziləri, o cümlədən qədim İrəvan şəhəri ermənilərin tapdağı altındadır. Müsəlmanların ayaq izləri qalan ərazilərdə ermənilər Fransadan və digər ölkələrdən olan xaç qardaşları ilə yüz-yüz Təpəbaşı məhəlləsində konyak gillədir, bəzən də antitürk ideyalı keşişlərin ad günlərini qeyd edir, var gücləri ilə "böyük Ermənistan", "dənizdən-dənizə" şüarı ilə bar-bar bağırırlar. Onlar anlamalıdırlar ki, elə bir məqam yetişəcək ki, onlar türklərin məngənəsində boğulacaq "dəmir yumruq" başlarına endiriləcəkdir.

Bu gün İrəvandakı Təpəbaşı ərazisinə çoxsaylı turistlər gəlir, bu məhəllənin məhv edilməsini görür və göz yumurlar. Ermənilər Təpəbaşının Azərbaycan xalqının maddi-mədəni irsi olduğunu qəbul etməli, faşist xislətlərindən, antitürk mövqelərindən əl çəkməlidirlər.

UNESCO Təpəbaşıda azərbaycanlılara xas olan abidələrin dağıdılmasına biganəlik göstərməməli, erməniləri insanlığa yaraşmayan hərəkətlərdən çəkinməyə məcbur etməli, bu qədim abidənin qorunması üçün real addımlar atmalıdırlar.

Erməni vandalları bu gün Cənubi Qafqazın adına ləkə gətirən bir ölkəyə çevrilmişdir. Onlar 37 il öncə Qərbi azərbaycanlıları öz tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya etdilər. İndi isə gah sərhədlərimizdə təxribatlar törədir, Fransa, Hindistan, Yunanıstan və digər ölkələrdən silah-sursat gətirir, gah da imkan tapdıqca türklərə məxsus olan abidələri erməniləşdirir və yaxud dağıdırlar.

Təpəbaşı məhəlləsində olan azərbaycanlılara məxsus abidələrin tarixdən silinməsi bunun bariz nümunəsidir. Erməni şovinistləri tarixi Azərbaycan şəhəri olan İrəvandakı 9 məscidimizi yer üzündən silmişlər. Göy məscidə isə İran möhürü vuraraq fars məscidi kimi qələmə vermişlər. Bu gün Təpəbaşı məscidində nələr baş verir? Ermənilər bu məsciddən "bar" kimi istifadə edir, burada spirtli içkilər istehsal olunur, müsəlmanların ibadət ocaqlarına hörmətsizlik göstərilir, burada min cür oyundan çıxırlar.

Ermənistanda Təpəbaşı məscidi də daxil olmaqla Qərbi azərbaycanlılara məxsus 300-dən çox məscid dağıdılmış vəziyyətdədir. 600-ə yaxın qəbiristanlıq isə yerlə-yeksan edilib.

Mədəni irsin məhv edilməsi həm keçmişə, həm də gələcəyə zərbə vurur. Çünki abidələrin yox edilməsi, tarixi saxtalaşdırma və mədəniyyətlərarası dialoqun olmaması yeni nəsillər arasında nifrət toxumları səpir.

Şübhəsiz ki, UNESCO, BMT və Avropa Şurası kimi qurumlar Təpəbaşı məscidindəki erməni özbaşınalığına etiraz edərək tədbirlər görəcək, bu yerlərin spirtli içki məkanına çevrilməsinə son qoyulacaqdır.

**Qədir ASLAN,**
**"Respublika".**